

Zemfira MƏHƏRRƏMLİ

# ANA PİŞİK VƏ YAVRULARI

*hekayə*

Nəvəm on üç yaşlı Nihadın yay mövsümünü birgə keçirdiyimiz bağımızla bağlı çoxlu uşaqlıq xatirələri var. Bir dəfə onun sinif yoldaşları bağa qonaq gəlmişdi. Uşaqlar qol-budağı yamyaşıl, iri çətiri xatırladan ağ tut ağacının kölgəsində deyib-gülür, şənlənirdilər. Nihadın ucadan:

– Kim maraqlı əhvalat danışar? – sualı eşidiləndə ara sakitləşdi. Uşaqlar bir-birlərinin üzünə baxdılar. Hər kəs olub-keçənləri yada salaraq nə isə söyləmək üçün, necə deyərlər, dil boğaza qoymurdu.

Nihad üzünü dostlarına tutub:

– Deyəsən, ən maraqlısını özüm danışacam. Diqqətin ona yönəldiyini duyaraq üzündə xoş bir təbəssüm yarandı:

– Uşaqlar, bu, neçə il öncə baş verən əhvalatdır. Bağa təzəcə köçmüşdük. Bir gün nahar vaxtı alçaq daş hasarın üstündə oturan sarı pişiyin miyoltusunu eşitdik. Boşqabımdan bir tikə ət götürüb heyvanı səslədim. Pişik aşağı tullanıb çəkinə-çəkinə bizə yaxınlaşdı. Amma atdığım ət tikəsini yemədi, dişləri arasına alıb bir an içində həmin hasara dırmaşaraq gözdən itdi.

Az sonra yenidən qayıtdı. Yaxına gəlib xeyirxahlarından gözünü çəkmir, məlul-məlul baxırdı. Bacım Nigar uca səslə:

– Görün yazıq necə acdır! – dedi.

İkinci tikəni stolun altına atdım. Ona düşən payı tezcə qamarlayıb dişləri arasında sıxaraq bir göz qırpımında yenə də hasarın o üzünə tullandı. Sarı pişiyin bu hərəkətinə mat-məəttəl qalmışdıq. Düşünürdük: "Əgər acdırsa, tikəni niyə yemir".

Bağda əl-ayaq çəkilmiş, ətrafa sakitlik çökmüşdü. Mən açıq eyvanda oturub kitab oxuyurdum. Hənirtiyə başımı qaldırdım. Nə görsəm yaxşıdır? Sarı pişik bapbalaca balasını ağzına alaraq hasarı aşdı.Yavrusunu ağac kölgəsində qoyub o birisinin dalınca getdi. Beləliklə, üç balasını da qonşunun bağından gətirərək özünə yurd-yataq saldı. Bütün gördüklərimi söyləyəndə anam:

– Heyvanlar onları yemləyənlərə, yavrusunun qayğısına qalanlara tez isinişirlər. Görürsən, oğ-

lum, ana pişik balalarının salamatlığı üçün onları bizim bağa gətirib. Sən də, bacın da heyvanları çox sevirsiz, bala pişikləri qoruyun, tez böyüsünlər.

Bir-iki gündən sonra ana pişik və balaları daha bizdən çəkinmirdi. Bir-biriylə oynayır, anasından süd əmir, həm də doğrayıb verdiyimiz kiçik tikələri yeyirdilər. "Məstan, məstan" səsləyərək özünü yetirən Nigar yavruları tumarlayır, əzizləyirdi.

Səhər-axşam tənəklərin arasında qaçışan, bağımızın enini uzununa qatan balaların ikisi eyni gündə yoxa çıxdı. Nigar rəngi, ipək kimi tükləri anasına bənzəyən balaların əvvəl birinin, sonra isə onun ardınca ikincisinin evin arxasındakı iydə ağacına dırmaşdığını və oradan yaxınlıqdakı divara çıxaraq görünməz olduğunu bizə həyəcanla söylədi. Ana pişiyin hələ bundan xəbəri yoxuydu, ağ şanı tənəyinin kölgəsində yatmışdı.

Babam şəhərə getməyə hazırlaşırdı. Maşının mühərrikini işə salıb həyətdən çıxarkən mənə dəmir darvazanı açmağı tapşırmışdı. Onu dalanadək yola salıb geri dönəndə sarı pişiyin orabura vurnuxduğunu gördüm. Bağın hər küncünü dolaşan ana pişik miyoldayır, yavrularını axtarırdı. Balaların biri də gözə dəymirdi. Qəribədir ki, bayaqdan maşının dövrəsində qaçışan, bizim" qorxaq sonbeşik" adlandırdığımız üçüncü bala da həyətdən yoxa çıxmışdı.

Ana pişik heç cür rahatlıq tapmır, aram olmur, qəribə səslər çıxarırdı. Yeməyə də məhəl qoymurdu. Ürək dağlayan, kəsilməyən miyoltusu bağı başına götürmüşdü. Nə edəcəyimizi bilmirdik. Ən yaxın qonşulardan da xəbər aldıq. Yaraşıqlı yavruları " gördüm" deyən yox idi.

Qaş qaralır, axşam düşürdü. Şəhərdən qayıdan babam nəvələrini yanına səsləyib:

– Uşaqlar, sürprizim var, heç bilirsiniz sizə nə gətirmişəm? – deyə soruşdu.

Cavabımızı gözləmədən maşının yük yerini açdı, bala pişiyi ovcuna götürüb yerə qoydu:

– Bu da sizin "qorxaq sonbeşiyiniz". Elə də qorxaq deyilmiş... Sonra da əlavə etdi:

– Bütün şəhəri mənimlə birgə gəzib dolanıb.

Təəccüblə babama baxırdıq, baş verənləri ona danışdıq. Babamın söylədikləri isə lap maraqlı idi. Sən demə, ona "yol yoldaşı" olan yavrucığaz maşının "peredok" adlanan qabaq hissəsindəki yuvayabənzər boşluğa giribmiş.Yaxşı ki, maşın idarə olunarkən yerə çırpılmayıb. Yayın cırcıraması, mühərrikin istisi də bir yandan. Babam işə çatıb maşından düşəndə təngnəfəs olub tövşüyən bala pişiyi qabaq təkərlərin yanında görüb və məsələni anlayıb. İt-bata düşməsin deyə, "günün qəhrəmanı"nı sağ-salamat bağa gətirib çıxarıb.

Heç olmasa, bir balanın tapılmasına çox sevindik. Nigar bağı dolaşıb "piş-piş" eləyərək ana pişiyi səsləyirdi. Sarı pişik sanki ildırım sürətilə irəli cumdu. Gözləri parıldayırdı. Bu dəfə çox sakitcə qəribə səslər çıxarır, kimsəyə məhəl qoymadan intizarında olduğu balasını yalayırdı.

Nihadın danışdığı əhvalat hamımızı kövrəltmişdi.

